DÜNYA XƏBƏRLƏRİ

Türkmənistan 'Şimal-Cənub' nəqliyyat dəhlizini genişləndirir

Noyabr 05, 2026



Yeni yol

Türkmənistanda Qaraboğaz qəsəbəsini Qazaxıstan sərhədi ilə birləşdirən 44 kilometrlik avtomobil yolu açılıb. Yeni yol beynəlxalq "Şimal-Cənub" nəqliyyat dəhlizinin tərkib hissəsidir.

Açılış mərasimi noyabrın 4-də keçirilib. Türkmənistan prezidenti **Sərdar Berdiməhəmmədov** mərasimə videobağlantı vasitəsilə start verib.

Yeni yol Türkmənbaşı-Qaraboğaz-Qazaxıstan sərhədi avtomobil magistralının bir hissəsidir. Orient.tm nəşri bu yolun Qazaxıstan sərhədinə birbaşa çıxışı təmin etdiyini

yazır.

Ümumi uzunluğu 207 kilometr olan Türkmənbaşı-Qaraboğaz avtomobil magistralının tikintisinə 2025-ci ilin noyabrında başlanılıb. Digər hissələrdə isə tikinti işləri davam edir.

S.Berdiməhəmmədov elə həmin gün Aşqabad-Daşoğuz yolunun təməlqoyma mərasimində də iştirak edib. Uzunluğu 550 kilometr olacaq bu magistral da "Şimal-Cənub" dəhlizinin bir hissəsinə çevrilməlidir.

"Şimal-Cənub" nəqliyyat dəhlizinə dair beynəlxalq sazişi 2000-ci il sentyabrın 12-də Rusiya, Hindistan və İran imzalayıb. Saziş 2002-ci ilin mayında qüvvəyə minib. Layihə Cənubi Asiya, Fars körfəzi ölkələri, Rusiya və Avropa arasında yükdaşımalar üçün alternativ marşrutun yaradılmasını nəzərdə tutur. Məqsəd Süveyş kanalı üzərindən keçən dəniz marşrutu ilə müqayisədə daşınma müddətini və xərclərini azaltmaqdır.

Sonradan bu sazişə Qazaxıstan, Belarus, Azərbaycan, Ermənistan və Türkiyə qoşulub. Türkmənistan isə layihənin iştirakçısına 2023-cü ildə çevrilib.

Bu nəqliyyat şəbəkəsi dəmir yolu, avtomobil və dəniz marşrutlarını birləşdirir və üç əsas istiqaməti əhatə edir: Azərbaycan üzərindən keçən qərb marşrutu, Qazaxıstan və Türkmənistandan keçən şərq marşrutu, həmçinin Rusiya və İranın Xəzər limanlarından istifadə etməklə formalaşan transxəzər marşrutu.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur